”UNUDULMAZLAR” silsiləsindən

# EH... SƏYAVUŞ... SƏYAVUŞ... SƏNİ UNUTMAQMI OLAR?



Vaqif YUSİFLİ

**O, mənim dostum idi. Amma hələ dost olmamışdan, bir redaksiyada (”Azərbaycan” jurnalında) on il bir otaqda sakin olduğumuz çağlardan xeyli əvvəl, altmışıncı illərdən onun şeirlərini oxuyurdum. 1984-cü ildə o, jurnalımıza işə götürüldü (bundan əvvəl ”Ulduz” jurnalında çalışmışdı). Moskvada-SSRİ Yazıçılar İttifaqının Qorki adına Ədəbiyyat İnstitutu nəzdində olan Ali ədəbiyyat kurslarında təhsilini başa vurmuşdu.Onda 41 yaşı vardı. Amma bu yaşa qədər Səyavuş Sərxanlı həm həyatda, həm də ədəbi aləmdə böyük bir yol keçmişdi.**

O, Şəmkirin Morul kəndində, dəmirçi Əli kişinin ailəsində dünyaya gəlmişdi. Bu Morul kəndi görkəmli şərşünas Rüstəm Əliyevin, ölməz sənətkar Leyla Bədirbəylinin, Sibirdə neft yataqlarının ”Kolumbu” Fərman Salmanovun dünyaya göz açdığı kənd idi.

### Ədəbiyyata sevgisi,

***necə deyərlər, ”qara sevda”ya bənzərdi. Hələ orta məktəbdə oxuyarkən ”Qırmızı Şamxor” qəzetində şeirləri ilə çıxış edirdi. Orta məktəbi qızıl medalla bitirmişdi. Amma deyəsən, valideynlərinin təkidilə sənədlərini Tibb İnstitutuna verdi, qəbul da olundu. Cəmi bir il oxudu. Sonralar bunun səbəbini soruşanda dedi ki, bizi tez-tez xəstəxanalara, ”praktikaya” aparırdılar.***

Orda mən ölmüş insanların skeletlərinə baxa bilmirdim və qərara aldım ki, öz xahişimlə institutu tərk edim. Ən böyük arzum bu idi ki, ADU-nun jurnalistika fakültəsinə daxil olum. Amma o zaman qayda beləydi ki, jurnalistika fakültəsinə daxil olmaq üçün gərək iki illik istehsalat stajın ola. Mən də qayıtdım rayona, Yevlax tikinti idarəsində fəhlə, Şəmkirdə, bir məktəbdə çilingər-mantyor, pionerlər evində uşaq xorunun dirijoru, mədəniyyət evində dram dərnəyinin rəhbəri ”vəzifələrində” çalışdım.Amma şeirlən əl çəkmədim.1962-ci ildə arzuma çatdım, jurnalistika fakültəsinə daxil oldum.

### Amma bir il əvvəl,

1961-ci ildə, ”Azərbaycan gəncləri” qəzetində Xalq şairi Nəbi Xəzrinin təqdimatı ilə onun ”Cığır” və ”Səslədi məni” şeirləri çap olundu. Deyirdi ki, rayonda ikən bir neçə şeirimi poçtla Nəbi müəllimin ünvanına yollamışdım. Ədəbiyyatda mənim ilk havadarım Nəbi müəllim oldu. Beləliklə, Səyavuş Sərxanlı ali məktəbə həm də şair kimi daxil olur və təhsil illərində də şeirləri və publisistik yazıları ilə mətbuatda çıxış edir.Ali məktəbi bitirdikdən sonra ”Ulduz” jurnalında işə götürülür, Sonra da Moskva Son iş yeri isə ”Azərbaycan” jurnalı olur.

***Bəli, öncə dedim ki, on il bir otaqda (o, tərcümə ədəbiyyatına baxırdı-təsadüfi deyildi, o, həm də tərcüməçiydi) çalışmışıq. İnsan kimi çox saf idi, tez-tez birlikdə Ədəbiyyatı təbliğ bürosunun xətti ilə rayonlara çıxardıq.Hər hansı rayonda onu tanıyır, sevir və qonaq çağırırdılar. Yadımdadır ki, mənim 50 yaşıma görə Masallıya da getdik, sabiq icra hakimi Teymur Yəhyayev ondan dönə-dönə xahiş edirdi ki, şeirlərini oxusun.***

Səyavüş Sərxanlı XX əsr Azərbaycan poeziyasının ”altmışıncılar” nəslinə mənsub idi.



Onu bir şair kimi səciyyələndirməli olsam, deyərəm ki, S.Sərxanlı şeirimizdə heç kimə bənzəmirdi, sadə, amma dərin mənalı, obrazlı, hamının başa düşdüyü bir tərzdə yazırdı.

Elə şeirləri var ki, o mövzuda S.Sərxanlı elə bil, son nöqtəni qoyur. 1962-ci ildə, on yeddi yaşında qələmə aldığı ”Duz-çörək” şeirini onun şah əsərlərindən biri hesab edirəm:

*Babalar illərlə odlu ürəklə*
*Bu nemət yolunda candan keçiblər.*
*İnsan tanınıbdı duzla-çörəklə,*
*Ən böyük Andı da ona içiblər.*

*Sınayar, tanıdar yüz dostu, yarı,*
*O daim ömürlə-günlə qoşadır.*
*Duz-çörək insanın ürək meyarı,*
*Duz-çörək insanın məhək daşıdır.*

*Telli sünbüllərin əzizliyini*
*Şehini bal kimi içəndə gördüm.*
*Dünyanın ən böyük təmizliyini*
*Zəmi qırağından keçəndə gördü.*

*Onun qulluğunda durmaq çətindi,*
*Ona soyuq ürək daş olmalı, daş.*
*Yer Günəş başına dolanmır indii,*
*Duz-çörək başına dolanır, qardaş!*
.
*Bir ulu gözəllik gətirin yada-*
*Özgə hansı adla gül açar ürək:*
*İnsan üç dünyada bezmir dünyada-*
*Vətən..Ata-ana Bir də duz-çörək!*

*Yersiz boşalandan, yersiz dolandan*
*Yerində kövrəklik, sərtlik gözləmə.*
*Çörəyi dizinin üstə olandan*
*Kişiik gözləmə,*
*Mərdlik gözləmə!*

Bu yazıda mən onun neçə şeirinin adını çəkərəm ki, o şeirlər indinin özündə də poeziyamızın inciləri sırasındadır. ”Ana” şeiri:

***Şairlər şeirini qınasın bir az,***
***Borcludu önündə o saf niyyətin:***
***Dahilər yerini tanısın bir az-***
***Anadır dahisi əbədiyyətin.***

”Kənddir” şeiri:

*Yağdım, çox arzuya, əhdə calandım,*
*Yollarda-izlərdə oda qalandım,*
*Çox böyük şəhərlər gəzdim, dolandım,*
*Gördüm həyatımın mənası kənddir.*
*Kəndimin balaca tut ağacı da,*
*Mənə dünyamızdan böyük görünür.*

Səyavuş deyirdi ki, özümü doğulduğum kənddə rahat hiss edirəm.

Yayın ildırımlı yağışına, arının güllərdən bal yalvarışına, gülün iniltisinə, sünbül işığına öyrəşmişəm.

Və ildə neçə yol üz tuturam kəndə-kəsəyə. Qarabağ hadisələri başlayanda ən çox həyəcanlanan şairlərdən biri də Səyavuş idi. Hələ altmışıncı illərdə ”Mənim Qarabağım” şeirini yazmışdı:

*Mənim Qarabağım dözümdü, tabdı,*
*İnam günəşidi min səhərimin.*
*Mənim Qarabağım bir daş kitabdı-*
*Düşübdü başına düşmənlərimin.*

Xeyli sayda məhəbbət şeirləri vardı, sevmişdi, sevilmişdi və şeirlərində də yaşanılmış hissləri qələmə alırdı. Həm də şikayətlənirdi ki, məhəbbət havası getgedə tükənir:

***Məhəbbət havası dəyişib bir az,***
***Qadası-qovğası dəyişib bir az;***
***Bir az odu azlıq adamı açmır,***
***Bir az modabazlıq adamı açmır,***
***Bir az da kərəmlik yerində deyil,***
***Bir az da sənəmlik yerində deyil.***
***Leylilik adamın gülməyi gəlir,***
***Məcnunluq adamın ölməyi gəlir.***
***Daha jöz yaşları çiçəklәmir ki:***
***Görüşlər modalar sərgisi olub.***

S.Sərxanlı Azərbaycan publisistikasında öz izini qoydu. Təfərrüata varmadan onun şair dostu Məmməd Aslandan (ona da rəhmət!) bir sitat gətirim: ”Səninq şairliyini bir yana atsaq alovlu bir publisist kimi sənin buna haqqın var!.

Bunu heç vaxt unutmayaq ki, iyirmi il əvvəl bizim aramızda insanı alıb aparan gözəl publisist yazıları yazan sən idin”. Səyavuş Sərxanlının qayğıları başından aşsa da, onu xoşbəxt şair, publisist hesab etmişəm.

Haqqında çox yazılar yazılıb ( Məmməd Rahim, Nəbi Xəzri, Anar, Bəxtiyar Vahabzadə, Qulu Xəlilov, Məmməd Araz və b.) və hamısı onun poeziyada bənzərsizliyini etiraf edib.

2005-ci ilin yanvar-fevral aylarında amansız bir xəstəlik onu çulğadı. İyulun əvvəllərində isə dünyasını dəyişdi. On beş il keçir bu itkidən. O ki nikbin idi və yazırdı ki:

***Elə hey doğulmaq istəyirm mən***
***Bir ömrü ömürtək yaşamaq üçün.***
***Yaşadı da...***